# Gənclərə Ümidim Var

**Almas İldırım**

© Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şerlərilə. 1990.

Sən istərsən qəlbimi parçala, qır, çeynə əz,
Mənim yenə bu yolda tükənməz bir canım var!
Sən ölüm ol, başımda hər an dolaş, hər an gəz,
Mənim də bir gün yenə sənə bir üsyanım var!..

Xoşmu gəldi sənə bu, bir an üçün susduğum?
Məni bu yoldan etməz, hökmünlə qan qusduğum!
Ey, qoynunda dünyaya gəlib ayaq basdığım,
Damarlarımda sənə vəqf edilmiş qanım var!

Mənim eşqim, a dostlar, əzəlidir, əzəli,
Kim çalacaq könüldən o sevdalı gözəli?!
Yox bir qüvvət ki, yıxsın qəlbimdəki əməli,
Mənim ki, o qurtuluş gününə imanım var!..

Sən aldırma içimdən yaralıyam, yaralı,
Buraq keçsin gənc ömrüm fırtınalı, boralı.*
Mən bilirəm, sonunda çıxmam üzü qaralı,
Yurdumun gənclərinə ümidim, imanım var!

*boranlı

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: aprel, 2004